Azərbaycan.- 2021.- 19 mart. S. 7.

# "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 107-ci kitabı çapdan çıxıb

## Kitabda Azərbaycan Prezidentinin Vətən müharibəsi zamanı xalqa müraciətlərinin və xarici KİV-ə bir sıra müsahibələrinin mətnləri toplanıb

Bilirsiniz, mənə minlərlə məktub gəlir. Bu məktubları oxuyanda, sözün düzü, mən də bəzi hallarda sevinc göz yaşlarımı saxlaya bilmirəm. O məktublarda o qədər səmimi, o qədər isti, o qədər qürurverici sözlər yazılır və mənə mesaj kimi çatdırılır. O məktubları oxuyanda bir daha görürəm ki, Azərbaycan xalqı nə qədər böyük xalqdır. Uzun illər belə vəziyyətdə yaşamaq, ancaq ümidlərlə yaşamaq, o ümidlərlə ki, gün gələcək və onlar öz dədə-baba ocağına qayıdacaqlar. Bu, doğrudan da böyük fədakarlıqdır. Mən çox xoşbəxtəm ki, bu qələbə sevincini bizim insanlara bəxş edə bildik.

AZƏRTAC xəbər verir ki, "İlham Əliyev. İnkişaf - məqsədimizdir" çoxcildliyinin 107-ci kitabında yer alan bu fikirləri dövlət başçısı 2020-ci il oktyabrın 15-də Türkiyənin NTV televiziya kanalına müsahibəsində söyləyib.

Çoxcildliyin növbəti kitabındakı materiallar 2020-ci il oktyabrın 15-dən noyabrın 4-dək olan dövrü - Vətən müharibəsinin davam etdiyi günləri əhatə edir. Həmin taleyüklü günlərdə Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev eyni vaxtda üç cəbhədə - döyüş meydanında, diplomatik müstəvidə və informasiya məkanında əzmlə, uğurla mübarizə aparırdı. Dövlətimizin başçısı xarici telekanallara, beynəlxalq informasiya agentliklərinə müsahibələrində xalqımızın haqq səsini, Qarabağ həqiqətlərini dünya ictimaiyyətinə çatdırır, işğalçı Ermənistana və onu himayə edənlərə açıq mesajlar verirdi. Kitaba daxil edilən bu və digər materiallar Azərbaycanın şanlı Vətən müharibəsi haqqında dolğun təsəvvür yaradır.




Bu cildə Prezident İlham Əliyevin "Rossiya Seqodnya" Beynəlxalq İnformasiya Agentliyinə (Rusiya), "A Haber" telekanalına (Türkiyə), TASS informasiya agentliyinə (Rusiya), "Nikkei" (Yaponiya), "Figaro" (Fransa) qəzetlərinə, "Fox News" (ABŞ), "RAİ-1" (İtaliya) televiziya kanallarına, "İnterfaks" agentliyinə (Rusiya), ARD telekanalına (Almaniya), "La Republica" qəzetinə (İtaliya), EFE informasiya agentliyinə (İspaniya) müsahibələrinin mətnləri daxil edilib.

Kitabda Azərbaycan Prezidentinin xalqa müraciətlərinin mətnləri ilə yanaşı, rəsmi "Twitter" hesabında paylaşımları da yer alıb. Bu paylaşımlarda rəşadətli ordumuzun cəbhədə qazandığı qələbələr, işğaldan azad edilmiş ərazilərimiz barədə məlumatlarla, eyni zamanda, Ermənistanın hərbi-siyasi rəhbərliyinin müharibə cinayətlərini, Gəncə və Bərdəni raket atəşinə tutmasını qətiyyətlə pisləyən bəyanatlarla tanış olmaq mümkündür.

Çoxcildliyin 107-ci kitabında Prezident İlham Əliyevin Türkiyə Böyük Millət Məclisinin Sədri Mustafa Şəntop, qardaş ölkənin Baş Ombudsmanı Şərəf Malkoç, xarici işlər naziri Mövlud Çavuşoğlu, sabiq Baş nazir Binəli Yıldırım ilə görüşləri, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibi Bağdad Amreyevi, İran Prezidentinin xüsusi nümayəndəsi Seyid Abbas Əraqçini qəbul etməsi, Türkiyə və Rusiya liderləri ilə telefon danışıqları barədə materiallar verilib.

Oxucular yeni nəşrdə Azərbaycan Prezidentinin Müdafiə Nazirliyinin Mərkəzi Komanda Məntəqəsində keçirdiyi operativ müşavirədə çıxışının mətni ilə də tanış ola bilərlər.

"Azərnəşr" tərəfindən buraxılan 107-ci kitabın hazırlanmasında Azərbaycan Dövlət İnformasiya Agentliyinin (AZƏRTAC) materiallarından istifadə olunub.